Yazan
12.11.13 22:17 -



Türkiyəyə rəsmi səfərə gedən Azərbaycan prezidenti İlham Əliyev bu gün Türkiyə prezidenti Abdulla Gül tərəfindən qəbul edilib.

Çankaya köşkündə rəsmi qarşılama mərasimi keçirilib. İlham Əliyev və xanımı Mehriban Əliyeva Abdulla Gül və xanımı Hayrunnisa Gül tərəfindən qarşılanıb. Rəsmi mərasimdən sonra ikitərəfli görüş başlayıb. Görüşdən sonra birgə mətbuat konfransı keçiriləcək.

İki gün davam edəcək səfər zamanı müxtəlif sahələrə aid sazişlər və protokollar imzalanacaq. Tərəflər regional və qlobal məsələlər ətrafında məsləhətləşmələr aparacaqlar. İ. Əliyevə A. Gül tərəfindən “Dövlət nişanı” təqdim ediləcək.

Bu gün axşam Azərbaycan prezidentinin şərəfinə ziyafət veriləcək. Ziyafətə baş nazir Rəcəb Tayyib Ərdoğan da qatılacaq.